# İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU

(2021-ci il üzrə)

**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU (2021-ci il üzrə)**

*© İİETİ, Bakı, 2021*

## MÜNDƏRİCAT

**ÖN SÖZ ..... 5**

**İŞ PLANI ÜZRƏ YERİNƏ YETİRİLMİŞ İŞLƏR ..... 6**

AZƏRBAYCANDA KLASTERLƏRİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ ..... 6
ÖLKƏNİN ƏMƏK BAZARINDA İXTİSASLARA TƏLƏBLƏRİN MÜƏYYƏN EDİLMƏSİ ..... 6
ÖLKƏ HESABATININ HAZIRLANMASI ..... 7
YOL-NƏQLİYYAT HADİSƏLƏRİ NƏTİCƏSİNDƏ DƏYƏN SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ HESABLANMASI QAYDALARI ..... 7

**İCMAL XARAKTERLİ İŞLƏR ..... 8**

İNSAN KAPİTALININ QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜASİR YANAŞMA VƏ METODLARI ..... 8
İSTEHLAKÇI İNDEKSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ TAPŞIRIĞI ..... 9
İSTEHLAKÇI İNAM İNDEKSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ ..... 9
ÜDM-İN ALTERNATİV ÜSULLA HESABLANMASININ NƏTİCƏLƏRİ ..... 10
AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ ŞOKLARIN TƏSİRİ ..... 10

**İQTİSADİ FƏALLIĞIN MƏLUMATLARIN İNTELLEKTUAL TƏHLİL ÜSULLARI VASİTƏSİ İLƏ QİYMƏTLƏNDİRİLMƏSİ ..... 11**

İNAM İNDEKSLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ÜDM-İN QISAMÜDDƏTLİ PROQNOZUNUN VERİLMƏSİ ..... 11
BEYNƏLXALQ HESABLAMALARDA XİDMƏTLƏR SEKTORUNUN HƏCMİ VƏ ÜDM-DƏ PAYI İLƏ ƏLAQƏDAR METODOLOJİ ARAŞDIRMA ..... 12
DÖVLƏTİN İQTİSADİYYATDA ROLU ..... 13
YAŞIL ENERJİNİN İNKİŞAFI İLƏ İQTİSADİ STRUKTURDA BAŞ VERƏ BİLƏN DƏYİŞİKLİKLƏRƏ BAXILMASI ..... 13
QLOBAL GEOSİYASİ TƏSİRLƏRİN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ..... 14
TÜRKİYƏ, GÜRCÜSTAN, İSRAİL, RUSİYA, ÇİN, BƏƏ, ƏFQANISTAN VƏ İRANIN SOSİAL-İQTİSADİ, O CÜMLƏDƏN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA DAİR BİR SIRA MƏLUMATLARINDAN İBARƏT ÖLKƏ TƏQDİMATLARININ HAZIRLANMASI ..... 14

**İNSTİTUTDA YERİNƏ YETİRİLMİŞ VƏ 2021-ci İLDƏ İLKİN MÜZAKİRƏYƏ ÇIXARILMIŞ DİSSERTASİYA İŞLƏRİ ..... 15**

QEYRİ-NEFT SEKTORUNDA RƏQABƏTQABİLİYYƏTLİ DAXİLİ İSTEHSALIN İQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ..... 15
REGİONAL İNNOVASİYA AKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ..... 15
ELEKTRİK ENERJİSİNİN İSTEHSAL VƏ İSTEHLAKININ ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ..... 16
İXRACIN STİMULLAŞDIRILMASINDA KREDİTLƏŞMƏ MEXANİZMLƏRİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ ..... 18
XARİCİ İNVESTİSİYALARIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – DÜNYA TƏCRÜBƏSİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI ..... 18

GƏNCƏ-QAZAX İQTİSADİ RAYONUNUN İQTİSADİ İNKİŞAF VƏZİYYƏTİNİN XƏRC-BURAXILIŞ MODELİ ƏSASINDA QİYMƏTLƏNDİRİLMƏSİ ........ 19
QEYRİ-NEFT İXRACININ ARTIRILMASININ TƏSİR AMİLLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MODELİNİN İŞLƏNİLMƏSİ ........ 20
DƏYƏR ZƏNCİRİNİN GENİŞLƏNDİRİLMƏSİ KONTEKSİNDƏ AZƏRBAYCANDA NEFT KİMYA SƏNAYESİNİN DÜNYA BAZARINA İNTEQRASİYASININRASİONAL İSTİQAMƏTLƏRİ ........ 21

# ÖN SÖZ

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu 55 illik böyük bir tarixə və zəngin ənənələrə malikdir. İnstitutda aparılan elmi-tədqiqatlar ölkəmizdə makroiqtisadi sabitliyin qorunması və tənzimlənməsinin həyata keçirilməsi, davamlı inkişafın təmin olunması, regionların və sahibkarlığın inkişafı, qeyri-neft sektorunun, əsas etibarı ilə onun ixrac potensialının artırılması məqsədi ilə iqtisadi sahələrin diversifikasiya olunmuş inkişafı, mənzil-kommunal və infrastrukturun inkişafı istiqamətləri üzrə aparılan uğurlu siyasətin hədəflərinə uyğunlaşdırılmaqla, bu istiqamətlərə müvafiq qısa, orta və uzunmüddətli proqnoz və planların tərtib olunması üzrə model və usulların işlənilməsinə yönəldilmişdir. İnstitut milli iqtisadiyyatın müxtəlif sahələrinin və regionların davamlı inkişafına dair elmi-tətbiqi tədqiqatların aparılması, koordinasiya edilməsi, kadr hazırlığının və tədrisinin təşkili istiqamətlərində geniş fəaliyyət göstərir.

2020-ci ildə də İnstitut əsas fəaliyyət istiqamətini Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri", Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar üzrə işçi qrupunun 2020-ci il üzrə Fəaliyyət Planı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Dövlət Proqramlarının icrası çərçivəsində müvafiq tədbirlər əsasında, Nazirliyin müvafiq şöbələri və struktur bölmələri ilə razılaşdırılmaqla qurmuşdur.

Təqdim olunan referativ toplu İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun 2021-ci ilin I yarısındakı elmi-tədqiqat fəaliyyətinə həsr olunmuşdur. Topluda İnstitutda 2021-ci ilin I yarısı üzrə yerinə yetirilmiş işlərin qısa xülasələri verilmişdir.

# İŞ PLANI ÜZRƏ YERİNƏ YETİRİLMİŞ İŞLƏR

## AZƏRBAYCANDA KLASTERLƏRİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

***İcraya məsul rəhbər:*** *Malik Mehdiyev*
***İcraçı:*** *Nərminə Quliyeva*

Tədqiqat işinin ilkin mərhələsində klasterlərin inkişafının əsas xüsusiyyətlərinin təhlili aparılmışdır. Buna uyğun olaraq xarici klasterlərin inkişafının əsas xüsusiyyətləri nəzərdən keçirilmişdir. Növbəti mərhələdə sənaye klasterlərinin formalaşdırılması üzrə araşdırmalar aparılmış, klasterin formalaşdırılmasının bir neçə mərhələdə həyata keçirilməsi müəyyənləşdirilmiş, sənaye klasterlərinin milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə və innovasiya aktivliyinə əsas təsir göstərən amilləri sadalanmışdır. Daha sonra aparılan araşdırmalar nəticəsində Azərbaycanda klasterlərin təşkili və idarə edilməsi siyasətinin xüsusiyyətləri təhlil edilmişdir.

## ÖLKƏNİN ƏMƏK BAZARINDA İXTİSASLARA TƏLƏBLƏRİN MÜƏYYƏN EDİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Ülkər Salıfova*

Tədqiqat işində əmək bazarının nəzəri metodoloji aspektləri araşdırılmış, Azərbaycanda əmək bazarının inkişafının mövcud vəziyyəti öyrənilmişdir. Bununla yanaşı işsizlik səviyyəsi, ölkənin əmək bazarında tələbat olan ixtisas və peşələr üzrə təhlil aparılmışdır. İşdə həmçinin əmək bazarı və məşğulluq sahəsində qanunvericilik bazası təhlil olunmuşdur. Əmək bazarının təhsil sistemi ilə qarşılıqlı əlaqəsi nəzərdən keçirilmişdir. Əmək bazarında tələbat olan peşə və ixtisasları müəyyənləşdirmək üçün ən yaxşı və əlçatan vasitələrdən biri kimi sosial şəbəkədə qabaqcıl rekrutinq, yəni işədüzəltmə saytlarının təklif etdikləri iş yerləri, tələb olunan ixtisasların müqayisəli təhlili aparılmışdır. Mövcud olan problemlər müəyyən edilmiş və müvafiq təkliflər hazırlanmışdır.

## ÖLKƏ HESABATININ HAZIRLANMASI

***İcraya məsul rəhbər:*** *Ülkər Salıfova, Elnur Ələkbərov*
***İcraçılar:*** *Aliyə Şabanova*

Əsas iqtisadi fəallıq indikatorları nəzərə alınmaqla ölkənin hesabatı hazırlanmışdır. Hesabat iqtisadiyyatın sektorları üzrə bölmələrə ayrılaraq, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanaraq hazırlanmışdır, yığılmış göstəricilər 2019-2021-ci illəri əhatə edir və müvafiq olaraq mln.ABŞ dolları ilə ifadə olunmuşdur. İlkin olaraq Azərbaycanın ərazisi, əhalisi, sərhədləri və s. haqqında qısa məlumat verilir. Ümumi Daxili Məhsulun həcmi, sahələr üzrə strukturu və artım tempi üzrə göstəricilər təqdim olunmuşdur. İnvestisiyalar bölməsi üzrə əsas kapitala investisiyaların həcmi, investisiyaların ÜDM-də xüsusi çəkisi; Xarici ticarət bölməsi üzrə ixrac və idxalın artım tempi, xarici ticarət saldosunun mln.ABŞ dolları ilə ifadəsi verilmişdir. Biznes sektoru bölməsi üzrə özəl sektor müəssisələrinin sayı, elektrik enerjisi, qaz və su təchizatı, kommunikasiya sektoru, nəqliyyat sektoru (hava, su, dəmiryolu və avtomobil) sahəsində məlumatlar əks olunmuşdur. Ölkəmizdə biznes sektorunda böyük rol oynayan özəl və dövlət sektoru müəssisələri, xüsusi iqtisadi zonalar(XİZ) və s. haqqında məlumat verilmişdir. Azərbaycanda tətbiq olunan vergi növləri və dərəcələri, tədiyyə balansı, sosial vəziyyət bölməsi üzrə - infilyasiya səviyyəsi, istehlak qiymət indeksi, əhalinin gəlirləri, işsizlik səviyyəsi, orta aylıq pensiya məbləği, manatın məzənnəsi; dövlət büdcəsinin göstəriciləri, bank kredit və əmanətlərinin həcmi, valyuta ehtiyatları göstəriciləri, Azərbaycanın xarici iqtisadi əlaqələri haqqında qısa məlumatlar təqdimatda öz əksini tapmışdır.

## YOL-NƏQLİYYAT HADİSƏLƏRİ NƏTİCƏSİNDƏ DƏYƏN SOSİAL-İQTİSADİ VƏ EKOLOJİ ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ HESABLANMASI QAYDALARI

***İcraya məsul rəhbər:***
***İcraçılar:***

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 7.1.4.1-ci yarımbəndinin icrasının təmin edilməsi məqsədilə hazırlanmış "Yol-nəqliyyat hadisələri nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması Qaydaları" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyun 2021-ci ildə 192

nömrəli Qərarı ilə təsdiq olunmuşdur. Qaydaların 1.3-cü bəndinə əsasən YNH nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin icraatındadır. Tədqiqat işinin icrası ilə əlaqədar, Qaydaların 4.3 bəndinə müvafiq olaraq yol-nəqliyyat hadisələri nəticəsində dəyən zərərin hesablanması üçün zəruri olan məlumatların təqdim edilməsi məqsədilə müvafiq qurumlara sorğu göndərilmiş, əldə edilən məlumatlar əsasında mümkün hesablamalar aparılmış və ümumilikdə 2020-ci ildə yola və yol infrastrukturuna dəyər zərər qiymətləndirilmiş, hesablamalara görə zərərin 0.71 milyon manat olduğu müəyyən edilmişdir. Göstərici çatışmazlığı səbəbi ilə digər zərərlər barədə isə yekun nəticənin alınması mümkün olmamışdır.

# İCMAL XARAKTERLİ İŞLƏR

## İNSAN KAPİTALININ QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜASİR YANAŞMA VƏ METODLARI

***İcraya məsul rəhbər:*** *Fərhad Mikayılov*

Araşdırmada insan potensialının inkişafı səviyyəsinin qiymətləndirilməsi metodologiyası nəzərdən keçirilmişdir. İnsan kapitalının dəyərinin qiymətləndirilməsinə yanaşmalar - xərclərə əsaslanan yanaşma, ömürlük gəlir əsasında(outcomes) b.s. xalis cari dəyər (NPV) və göstəricilər əsasında (outputs) qiymətləndirmə üsullarına baxılmışdır. Eyni zamanda, araşdırmada insan kapitalını qiymətləndirmənin 4 müasir üsullu əks etdirilmişdir. 1) insan kapitalını dəyər və keyfiyyətinin indeks üsulları ilə ölçülməsi - dünya ölkələri üçün beynəlxalq inteqral göstəricilərdən istifadə edərək insan kapitalını (HC) kəmiyyətcə müəyyənləşdirmək; 2) İnsan kapitalının ÜDM-da innovasiya məhsulunun payı kimi ölçülməsi - insan kapitalının və bütövlükdə iqtisadiyyatın innovasiyalığının, müasirliyinin və səmərəliliyinin ayrılmaz göstəricisidir. İnsan kapitalının əlavə dəyərini müəyyənləşdirir və işçi qüvvəsinin innovasiya hissəsinin iqtisadiyyata töhfəsini əks etdirir; 3) İnsan kapitalını keyfiyyət qiymətləndirilməsi (Ekspert yanaşması) - müəyyən bir işçinin və bütövlükdə şirkətin işçilərinin fərdi qabiliyyətlərini xarakterizə edən keyfiyyət göstəricilərini qiymətləndirilir; 4) İnsan kapitalının investisiyaya görə qiymətləndirilməsi - şirkətin səmərəliliyində artım meyli və bu nəticəyə müəyyən bir işçinin töhvəsi olduqda insan kapitalına yatırımlar əsaslandırılır.

## İSTEHLAKÇI İNDEKSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ TAPŞIRIĞI

***İcraya məsul rəhbər:***
***İcraçılar:***

2021-ci ilin yanvar-noyabr ayları üçün sorğular aparılması yolu ilə iqtisadiyyatın mövcud vəziyyəti ilə əlaqəli olaraq istehlakçı qiymətləndirmələrini özündə ehtiva edən istehlakçı inam indeksi hesablanmışdır. İndeks özəl indekslərin ədədi ortalaması kimi hesablanmışdır: fərdi maliyyə vəziyyətində cari və gözlənilən dəyişikliklər, iqtisadi vəziyyətdə cari və gözlənilən dəyişikliklər, böyük alış-veriş üçün əlverişli şərtlər. Hər bir ay özündən əvvəlki aylarla müqayisəli təhlil edilmiş və müvafiq arayışlar hazırlanmışdır.

## İSTEHLAKÇI İNAM İNDEKSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*
***İcraçılar:*** *Afaq Qasımova, Səfər Hüseynov*

İstehlakçı inam indeksi, iqtisadiyyatın mövcud vəziyyətindən asılı olaraq istehlakçı qiymətləndirmələrini ehtiva edir, özəl indeksin ədədi ortalaması kimi hesablanır: fərdi maliyyə vəziyyətində cari və gözlənilən dəyişikliklər, iqtisadi vəziyyətdə cari və gözlənilən dəyişikliklər, böyük alış-veriş üçün əlverişli şərtlər. İstehlakçı inam indeksini hesablamaq üçün İnstitut tərəfindən sosial şəbəkə vasitəsi ilə istehlakçılar arasında onlayn sorğu keçirilmişdir. Mövcud istehlakçı əhval-ruhiyyəsini ölçmək üçün anketdə iş şəraiti və əmək bazarı şərtləri ilə bağlı suallar verilib. Sorğuda iştirak edənlərdən ölkədə istehlak qiymətlərinin, işsizlərin sayının dəyişməsinə münasibət bildirmələri, ölkədəki iqtisadi vəziyyəti və ailənin maddi vəziyyətini qiymətləndirmələri öyrənilir. Həmçinin, nisbətən böyük vəsait tələb edən xərclər etmək imkanları olub-olmadığı araşdırılır. Aparılan sorğunun nəticələrinə görə 2021-ci ilin aprel, may və iyun ayları üçün istehlakçı inam indeksləri hesablanmış və cari ilin I rübü üzrə müqayisəli təhlil aparılmışdır.

## ÜDM-İN ALTERNATİV ÜSULLA HESABLANMASININ NƏTİCƏLƏRİ

***İcraya məsul rəhbər:*** *Malik Mehdiyev*
***İcraçılar:*** *Rauf Musayev*

ÜDM-in alternativ üsulla hesablanması üçün əsas məlumat bazaı vergi ödəyiciləri tərəfindən məcburi qaydada təqdim edlilən hesabatlarda öz əksini tapan məlumatların vergi xidməti tərəfindən Avtomatlaşdırılmış Vergi İdarəetmə Sistemindən aqreqatlaşdırılaraq toplanmışdır. Bu məlumatlar iqtisadi fəaliyyət növləri üzrə vergi növləri və vergi tutma bazaları nəzərə alınmaqla alternativ üsulla ÜDM-in hesablanmasına tam imkan verir. Arayışda Ümumi Daxili Məhsul alternativ üsulla hesablanmış və onun DSK tərəfindən hesablanmış ÜDM ilə müqayisəsi aparılmışdır. Alternativ üsulla hesablanmış ÜDM ilə Statistika komitəsi tərəfindən hesablanmış ÜDM trendlərinə nəzər saldıqda da fərqlərin olduğu diqqət çəkir. Belə ki, DSK üzrə ÜDM zamana görə artım sürəti alternativ üsulla hesablanmış ÜDM-in artım sürətini 3 dəfədən çox üstələyir. Əgər hər iki üsulla hesablanmış ÜDM-lərin artım sürəti təxminən bərabər olsa idi iqtisadi aktivliyin proqnozlaşdırılması zamanı iqtisadi indikator kimi alternativ üsuldan istifadə edilə bilərdi.

## AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ ŞOKLARIN TƏSİRİ

***İcraya məsul rəhbər: Malik Mehdiyev***
***İcraçılar:***

İcmal xarakterli araşdırmada ölkədəki mövcud vəziyyət və perspektiv öyrənilmişdir. 2020-ci ildə ölkədə presedenti olmayan xarici və daxili şokların idarə olunması, 2021-ci il və ortamüddətli dövrdə ölkə iqtisadiyyatı qarşısında dayanıqlı iqtisadi artım trayektoriyasına qayıdış, növbəti 10 ildə ümumi daxili məhsulun ikiqat artımına nail olunması, yeni reallıqlar nəzərə alınmaqla dayanıqlı makroiqtisadi sabitliyin təmin edilməsi, habelə işğaldan azad olunmuş ərazilərin bərpası kimi mühüm çağırışlar arayışda öz əkini tapmışdır. Xarici şok dəyişənləri olaraq neft qiyməti və əsas ticarət tərəfdaşlarının – Avropa İttifaqı, Rusiya və Türkiyə - makroiqtisadi indikatorları götürülməklə bu şokların Azərbaycan iqtisadiyyatına təsiri rüblük səpkidə 2000-2017-ci illər üçün blok ekzogenlik məhdudiyyətli struktur vektor avtoreqressiv modeli vasitəsilə qiymətləndirilmişdir.

## İQTİSADİ FƏALLIĞIN MƏLUMATLARIN İNTELLEKTUAL TƏHLİL ÜSULLARI VASİTƏSİ İLƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*

İşdə rəqəmsallaşmanın inkişaf etdiyi dövrdə informasiya həcminin böyüməsi və böyük həcmli məlumatların emalının yeni üsulların tətbiqi məsələlərinə baxılmış, müasir proqram təminatından istifadə edərək böyük məlumatlar intellektual üsullar vasitəsi ilə təhlil edilmişdir. Təhlil obyekti olaraq Azərbaycan üçün aktual olan "İqtisadi fəallıq" mövzusu götürülmüşdür. Müxtəlif proqram təminatlarından istifadə edərək göstərilən mövzuda informasiya axını, axtarış nəticələri və s. təhlil edilir, real iqtisadi fəallıq indekslərinin hesablanması zamanı istifadə edilən sorğuların informasiya axını ilə əvəz edilmə yolları araşdırılır. Tədqiqat işi davam edir.

## İNAM İNDEKSLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ÜDM-İN QISAMÜDDƏTLİ PROQNOZUNUN VERİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*
***İcraçılar:*** *Elnur Ələkbərov, Təranə Salıfova*

İşin icrası çərçivəsində inam indekslərinin və iqtisadi inam indeksinin hesablanması və tətbiqi metodologiyası üzrə ilkin məlumatlar emal edilmişdir. Belə ki, iqtisadi fəaliyyət növləri üzrə sorğu anketləri hazırlanmış və cavablara əsasən hesablanmış balans indeksinin zaman sıraları formalaşdırılmışdır; iqtisadi fəaliyyət növləri üzrə inam indekslərinin və iqtisadi inam indeksinin kompozit indeksi hesablanmışdır; real ÜDM və iqtisadi inam indeksinin kompozit indeksində uzunmüddətli dövrlər müəyyən edilmiş və onların müqayisəli təhlili aparılmışdır. Tədqiqatın ilkin statistik bazası olaraq AR Mərkəzi Bankının 2015-ci ilin yanvar ayından 2021-ci ilin mart ayınadək müşahidə dövrü üçün Konyunktur anketindən istifadə edərək aparılan sorğular əsasında formalaşmış "Real sektorda İşgüzar Fəallıq İndeksləri» bazası əsasında iqtisadi sektorlar üzrə inam indekslərinin və iqtisadi inam indeksinin kompozit indeksi hesablanmışdır.

İqtisadi sektorlar üzrə inam indeksləri, iqtisadi inam indeksi və real ÜDM üzərində mövsümi hamarlama aparılmışdır. Hesablanmış iqtisadi inam (əhval-ruhiyyə) indeksinin qabaqlayıcı xarakterinin müəyyənləşdirilmiş və Azərbaycan iqtisadiyyatının biznes dövrlərinin dönüş nöqtələri qiymətləndirilmişdir.

Real ÜDM artım templərinin iqtisadi inam indeksindən (İİİ) asılılığı ekonometrik

qiymətləndirilmiş və biznes dövrlərin dönüş nöqtələrinin təhlil modelləri qurulmuş, VAR (vektor avtoreqressiya) modeli əsasında 2022-ci ilin mart ayına qədər proqnozlar hazırlanmışdır. Müəyyən edilmişdir ki, İİİ və real ÜDM dövrlərinin dönüş nöqtələri bir-birinə uyğundurlar. Buradan bu nəticəyə gəlmək olar ki, iqtisadi inam indeksi iqtisadi artım templərinin qısamüddətli proqnozlarını hazırlamaq üçün istifadə edilə bilər. İİİ proqnozlaşdırma xüsusiyyətinə malikdir. Üstəlik, bu proqnozlaşdırıcı xüsusiyyətlər iki şəkildə istifadə edilə bilər. Birincisi, İİİ iqtisadi fəallıq baxımından qabaqlayıcı göstərici kimi qiymətləndirilə bilər. Bu kontekstdə iqtisadi fəallığın gözlənilən istiqamət dəyişmələri və biznes-dövrlərin yaxınlaşacaq faza dəyişikliyi haqqında məlumat verilir. İkincisi, İİİ müvafiq proqnozlaşdırıcı modellərdə ÜDM-in artım tempi üçün izahlı dəyişən kimi istifadə edilə bilər.

## BEYNƏLXALQ HESABLAMALARDA XİDMƏTLƏR SEKTORUNUN HƏCMİ VƏ ÜDM-DƏ PAYI İLƏ ƏLAQƏDAR METODOLOJİ ARAŞDIRMA

***İcraya məsul rəhbər:*** *Elnur Ələkbərov*

İcmal xarakterli araşdırmada tədqiq edilmişdir ki, xidmət sektoru 2018-ci ildə qlobal iqtisadiyyatda yaradılan əlavə dəyərin təxminən 65%-ni təşkil etmişdir. Xidmət sektoru getdikcə daha əhəmiyyətli hal almış, Dünya Bankının məlumatına görə beynəlxalq ticarətdə xidmətlərin həcmi 2010-cu ildə təxminən 4 trilyon ABŞ dollarından 2019-cu ildə 6.2 trilyon ABŞ dollarına çatmışdır.

Xidmət sektorunda yaradılan əlavə dəyərin ÜDM-də payının hesablanması 1948-ci ildə qəbul edilən hazırkı dövrə qədər təkmilləşən İqtisadi Fəaliyyətlərin Beynəlxalq Standart Sahə Təsnifatına(BSST) görə aparılır. Belə ki, Dünya Bankının Xidmətlərdə yaradılan əlavə dəyərin ÜDM-də payı göstəricisinin hesablanması BSST-nin 50-99-cu bölmələrinə uyğun gəlir və onlara topdan və pərakəndə ticarət (otel və restoranar daxil), nəqliyyat, dövlət, maliyyə, peşə və təhsil, səhiyyə, daşınmaz əmlak xidmətləri kimi fərdi xidmətlərin əlavə dəyərləri daxildir. Bundan başqa bank xidməti xərcləri, idxal rüsumları və milli tərtibçilər tərəfindən qeyd olunan statistik fərqlər və yenidən ölçmədən qaynaqlanan fərqlər də daxildir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, ölkədə xidmət sahələrində yaradılmış əlavə dəyərin ÜDM-də payı göstəricisini hesablayarkən 19 iqtisadi fəaliyyət sahələri arasından A - Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, B - Mədənçıxarma sənayesi, C - Emal sənayesi, D - Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat, E - Su təchizatı; Çirkli suların və tullantıların təmizlənməsi, F – Tikinti sahələri nəzərə alınmamaqla hesablanır.

## DÖVLƏTİN İQTİSADİYYATDA ROLU

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*
***İcraçılar:*** *Əlvan Süleymanova, Elnur Ələkbərov, Təranə Salıfova*

İcmal xarakterli arayışda Azərbaycan, Finlandiya, Fransa, Norveç, İsveç, Türkiyə kimi ölkələr dövlətin iqtisadiyyatda roluna görə müqayisəli təhlil edilmişdir. Dövlət xərclərinin ÜDM-də payına görə təhlil aparılmış, daha yüksək olduğu ölkələr kimi Fransa, Norveç və Finlandiya müəyyən edilmişdir. Arayışda dövlətin iqtisadiyyata müdaxiləsinin səmərəliliyi göstəriciləri olaraq ÜDM-in artımı; inflyasiya səviyyəsi; ümumi qənaətin ÜDM-də payı; əsas kapitalın ümumi yığımının ÜDM-də payı götürülmüşdür. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, ölkələr üzrə reqressiya tənliklərinin determinasiya əmsalları (Türkiyə istisna) qənaətbəxşdir. Ölkələr üzrə inflyasiya və ümumi qənaətin ÜDM-də payının artması dövlət xərclərinin ÜDM-də payına, əsasən, mənfi təsir edir. Yəni dövlət xərclərinin ÜDM-də payının azalması ilə nəticələnir. İnflyasiyanın artması dövlətin antiinfilyasiya tədbiri olaraq dövlət xərclərini azaltmasına səbəb olur ki, nəticədə dövlət xərclərinin ÜDM-də payı da azalır. Ölkələr üzrə ÜDM-in artımı və əsas kapitalın ümumi yığımının ÜDM-də payının artımı dövlət xərclərinin ÜDM-də payının artması ilə nəticələnir.

## YAŞIL ENERJİNİN İNKİŞAFI İLƏ İQTİSADİ STRUKTURDA BAŞ VERƏ BİLƏN DƏYİŞİKLİKLƏRƏ BAXILMASI

***İcraya məsul rəhbər:*** *Əlvan Süleymanova*
***İcraçılar:*** *Fariz Məmmədov, Vüsal Həsənov*

İcmal xarakterli araşdırmada Azərbaycanda yaşıl enerji istehsalının mövcud vəziyyəti yaşıl enerjinin növlərinin ən çox yayılmış 6 növü - günəş enerjisi; külək enerjisi; su enerjisi; geotermal enerji; biokütlə və bioyanacaq enerjisi tədqiq edilmişdir. 2019-cu il üzrə iqtisadi fəaliyyət növləri üzrə enerji məhsullarının istehlakı, eləcə də yaşıl energetikanın inkişafının mümkün təsirləri: qlobal və yerli baxış nəzərdən keçirilmiş, məcmu qlobal enerji tələbatının proqnozu (milyon ton neft ekvivalenti) verilmişdir. İşdə müxtəlif enerji mənbələrinin elektrik enerjisi istehsalındakı payının dəyişməsi dinamikasına (iki ssenari üzrə) - mövcud tempin saxlanması ssenarisində və yaşıl enerjinin artımı ssenarisində baxılmış və yaşıl enerji sahəsinin gələcək inkişafı üçün tövsiyələr verilmişdir.

## QLOBAL GEOSİYASİ TƏSİRLƏRİN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Malik Mehdiyev*

İcmal xarakterli araşdırmada ölkədəki mövcud vəziyyət və perspektiv öyrənilmişdir. 2020-ci ildə ölkədə presedenti olmayan xarici və daxili şokların idarə olunması, 2021-ci il və ortamüddətli dövrdə ölkə iqtisadiyyatı qarşısında dayanıqlı iqtisadi artım trayektoriyasına qayıdış, növbəti 10 ildə ümumi daxili məhsulun ikiqat artımına nail olunması, yeni reallıqlar nəzərə alınmaqla dayanıqlı makroiqtisadi sabitliyin təmin edilməsi, habelə işğaldan azad olunmuş ərazilərin bərpası kimi mühüm çağırışlar arayışda öz əkini tapmışdır. Xarici şok dəyişənləri olaraq neft qiyməti və əsas ticarət tərəfdaşlarının – Avropa İttifaqı, Rusiya və Türkiyə - makroiqtisadi indikatorları götürülməklə bu şokların Azərbaycan iqtisadiyyatına təsiri rüblük səpkidə 2000-2017-ci illər üçün blok eksogenlik məhdudiyyətli struktur vektor avtoreqressiv modeli vasitəsilə qiymətləndirilmişdir.

## TÜRKİYƏ, GÜRCÜSTAN, İSRAİL, RUSİYA, ÇİN, BƏƏ, ƏFQANISTAN VƏ İRANIN SOSİAL-İQTİSADİ, O CÜMLƏDƏN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞA DAİR BİR SIRA MƏLUMATLARINDAN İBARƏT ÖLKƏ TƏQDİMATLARININ HAZIRLANMASI

***İcraya məsul rəhbər:*** *Elnur Ələkbərov*
***İcraçılar:*** *Ülkər Salıfova, Nərminə Quliyeva, Nigar Ələsgərova*

Türkiyə, Gürcüstan, İsrail, Rusiya, Çin, BƏƏ, Əfqanıstan və İran ölkələrinin hər biri üzrə təqdimatlar hazırlanmışdır. Təqdimatlarda ölkələr haqqında qısa məlumat, ümumi daxili məhsulun həcmi, strukturu, artım tempi, investisiyalar (əsas kapitala investisiyalar və BXİ), xarici ticarət – ixracın həcmi və artım tempi, ticarət dövriyyəsi üzrə əsas ticarət tərəfdaşları, biznes sektoru, biznesin, ixracın və investisiyaların təşviqi üzrə əsas alətlər və institutlar, vergilər, eləcə də xüsusi vergi güzəştləri, texnologiya və xüsusi müəssisələrə tətbiq olunan vergilər və onların dərəcələri, xarici şirkətlər vergi dərəcəsi, tədiyyə balansı, sosial vəziyyət, dövlət büdcəsi, bank sektoru, valyuta ehtiyatları, xarici iqtisadi əlaqələr bölmələri üzrə məlumatlar öz əksini tapmışdır.

# İNSTİTUTDA YERİNƏ YETİRİLMİŞ VƏ 2021-ci İLDƏ İLKİN MÜZAKİRƏYƏ ÇIXARILMIŞ DİSSERTASİYA İŞLƏRİ

## QEYRİ-NEFT SEKTORUNDA RƏQABƏTQABİLİYYƏTLİ DAXİLİ İSTEHSALIN İQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Elmi rəhbər:*** *Arzu Hüseynova*
***Doktorant:*** *Elnur Ələkbərov*

Dissertasiya işində qeyri-neft sektorunda daxili istehsalı rəqabətqabiliyyətli olan ticari məhsulların müəyyən edilmiş, onların qiymət dəyişmələrinə təsir edən amillər təhlil edilmiş və iqtisadi təsirlərinin sahələrarası əlaqələr nəzərə alınmaqla qiymətləndirilmişdir.

Dissertasiya işində rəqabət və rəqabətqabiliyyətliliklə bağlı anlayışların şərhi verilmiş, onlara klassik və modern yanaşmalar təhlil edilmiş, rəqabətqabiliyyətliliyin müəyyən edilməsində amillər və metodlar göstərilmişdir. İşdə qeyri-neft sektorunda daxili istehsalın rəqabətqabiliyyətliliyinin mövcud vəziyyətini təhlil etmək üçün rəqabətqabiliyyətliliyin ən mühüm göstəricisi olan istehsalda əmək məhsuldarlığı, emal sənayesi sahələri və kənd təsərrüfatı üzrə təhlil edilmiş, bu sahələrə yönəldilən investisiyalar dəyərləndirilmişdir. Həmçinin, 2013-2019-cu illər üzrə Balassa və Lafay indeksləri, Daxili resurs sərfi (Domestic resource cost) metodları ilə Azərbaycanın beynəlxalq bazarlarda müqayisəli üstünlüyə və rəqabətqabiliyyətliyə malik qeyri-neft məhsulları müəyyən olunmuşdur.

Tədqiqat işində xərclər-buraxılış və SHM multiplikator modellərinin imkanlarından istifadə olunmaqla bu fəsildə rəqabətqabiliyyətli məhsullar üzrə təsir təhlilləri aparılmışdır. Müəllif rəqabətqabiliyyətliliyin Balassa və DRC metodları ilə qiymətləndirilməsi nəticəsində aşkara çıxarılan bəzi ərzaq və qeyri-ərzaq məhsulları üzrə qiymət dəyişmələrinə səbəb olan müxtəlif göstəricilərin qiymət və qeyri-qiymət amillərinin təsirləri ekonometrik olaraq qiymətləndirilmiş və onların həmin məhsulların qiymət dəyişmələrindəki töhvələri aşkara çıxarılmışdır.

## REGİONAL İNNOVASİYA AKTİVLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Elmi rəhbər:*** *Arzu Hüseynova*
***Dissertant:*** Təranə Salıfova

Dissertasiya işində Cənubi Qafqaz regionu Azərbaycan Respublikasının innovasiya fəaliyyətinin təhlili və Azərbaycan Respublikası regionlarının innovasiya inkişafı səviyyəsinin qiymətləndirilməklə innovasiya inkişafına dair strateji yanaşmaların işlənmişdir. Bu istiqamətdə regionun innovasiya aktivliyinin formalaşmasının metodoloji əsasları tədqiq

edilmiş, regional innovasiya aktivliyinin qiymətləndirilməsi üsulları və qiymətləndirmə zamanı istifadə edilən indikatorlar sistemi beynəlxalq təcrübə əsasında araşdırılmış, dünya ölkələrinin innovasiya inkişaf reytinqlərini qiymətləndirilən əksər metodologiyalar – Qlobal İnnovasiya İndeksi, İnnovasiya Şəhərləri İndeksi, İnnobarometr, Portfolio innovation index, Qlobal İnnovasiya Barometri, Avropa İnnovasiya Hesabatı və s. nəzərdən keçirilmişdir. Həmçinin, ayrı-ayrı ölkələrin innovasiya inkişaf strategiyaları və onlarda istifadə olunan göstəricilər sistemi təhlil edilmişdir.

İşdə Azərbaycanda innovasiya ekosisteminin mövcud vəziyyəti 2 aspektdə - innovasiya sistemi və innovasiya dəstək sisteminin komponentləri üzrə təhlil edilmiş, innovasiya ekosisteminin potensial imkanları və maneələr müəyyən edilmişdir. Həmçinin, Qlobal İnnovasiya İndeksi reytinqi üzrə və Dünya Bankının elm və texnologiya sahəsi üzrə təqdim etdiyi göstəricilərə görə Cənubi Qafqaz regionu ölkələrinin innovasiya inkişaf səviyyəsinin müqayisəli təhlili verilmiş, ayrı-ayrılıqda ölkələrin zəif və güclü tərəfləri müəyyən edilmişdir.

İşdə Azərbaycanın regionlarının innovasiya inkişafının qiymətləndirilmələri də aparılmışdır. İlk növbədə ölkə regionları elm və təhsil göstəricilərinin inkişaf səviyyəsinə görə qiymətləndirilmiş, potensial regionlar müəyyən edilmişdir. Daha sonra yeni metodoloji yanaşmaya əsasən ölkədə ilk dəfə olaraq regionların innovasiya aktivliyinə meyillik indeksi hesablanmışdır. Qiymətləndirmə zamanı istifadə edilən göstəricilər sistemi beynəlxalq metodologiyalara əsaslanmaqla ölkənin milli xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmışdır. Sorğular onlayn platformada ümumilikdə, hər regiondan iqtisadiyyatın fərqli sektorlarında fəaliyyət göstərən müəssisə rəhbərləri arasında keçirilmişdir. Sorğuda regionun innovasiya aktivliyini ölçmək üçün aşağıdakı 5 əsas blokdan bloklara müvafiq göstəricilərdən istifadə edilmişdir. Qiymətləndirmə nəticəsində alınan innovasiya aktivliyinə meyillik indeksləri əsasında regionlar innovasiya inkişafı səviyyəsinə görə 3 qrupa bölünmüşdür: yüksək, orta və aşağı səviyyə. Eyni zamanda, işdə innovasiya aktivliyinin iqtisadi təsirləri ekonometrik qiymətləndirilmiş, ölkə və onun regionlarının innovasiya inkişafına dair strateji yanaşma prinsiplərinə dair təkliflər verilmişdir.

## ELEKTRİK ENERJİSİNİN İSTEHSAL VƏ İSTEHLAKININ ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Elmi rəhbər:*** *Vilayət Vəliyev*
***Dissertant:*** *Fariz Məmmədov*

Dissertasiya işində Elektrik enerjisinə tələb və təklifin proqnozlaşdırılmasınən nəzəri-metodoloji əsasları tədqiq edilmişdir. Bu istiqamətdə elektrik enerjsinə tələbin proqnozlaşdırılmasında tətbiq olunun müxtəlif ssenari yanaşmaları araşdırılmış, elektrik

enerjisinə tələb və təklifin proqnozlaşdırlması zamanı diqqət yetiriləcək amillər, eləcə də Qərb ölkələrində enerjiyə tələbin proqnozlaşdırılmasında istifadə olunan hazır modellərin xüsusiyyətləri nəzərdən keçirilmişdir. Nəhayət, ABŞ, Avropa, Türkiyə, keçmiş SSRİ respublikaları, habelə Azərbaycanda elektrik enerjisinə olan tələb və təklifin proqnozlaşdırılmanın səciyyəvi xüsusiyyətləri və proqnozlaşdırma zamanı tətbiq edilən əsas təsiredici amillər təhlil olunmuş, Azərbaycan Respublikasında elektrik enerjisi bazarının cari vəziyyəti və bazarın tənzimlənməsinin xüsusiyyətləri nəzərdən keçirilmişdir. Müxtəlif ölkələrin funksional olan və qismən dövlətə məxsus elektrik enerjisi bazarlarının tənzimlənməsinin anlaşılması baxımından nümunə olaraq bir Avropa, bir Asiya və bir keçmiş SSRİ respublikası seçilmiş və həmin ölkılərdə elektrik enerjisi bazarının tənzimlənməsi izah edilmişdir. elektrik enerjisi bazarında tələb və təklifin tarazlığı, elektrik enerjisi istehsalı xərclərinin optimallaşdırılması, istehsal güclərindən səmərəli istifadə və istehlakçıların maksimum faydalanması imkanlarının qiymətləndirilməsi baxımından, elektrik enerjisi üzrə ümumi tarazlığa əsaslanan Tarif Differensasiya Modelinin qurulmasınən zəruriliyi göstərilmişdir. tədqiqat işi çərçivəsində müvafiq riyazi model qurulmuş və tariflərdə differensasiya (fərqləndirmə) olduğundan və qurulacaq model fərqli tarifləri müəyyən edəcəyindən, modeli şərti olaraq “Tarif Differensasiya Modeli” adlandırılmışdır. Qurulnuş modeldə müxtəlif skalyarlar, parametrlər, dəyişənlər və tənliklər istifadə olunmuşdur. Azərbaycanda elektrik enerjisinə olan tələb və təklif 2019-2022-ci illər üzrə proqnozlaşdırılmışdır.

Azərbaycanda elektrik enerjisinə olan tələbə təsir edən amillər kimi ilk növbədə, əhali və qeyri-əhali sektoru istehlakına baxılmışdır. Əhali sektorunu ifadə edən göstərici kimi əhalinin sayının dəyişməsi, qeyri-əhalini ifadə edən göstərici kimi Milli Hesablar Sistemindəki Ümumi Buraxılış götürülmüşdür (ÜB). Daha sonra, elektrik enerjisinə olan tələbin əhalinin sayı və ÜB-dən asılılığı “Eviews 7” proqram paketində ekonometrik qiymətləndirilmişdir. Qiymətləndirmə zamanı ÜB-nin dəyərindən “Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı”nın dəyəri çıxılmışdır. Subyektiv səbəblərdən, daha doğrusu, uçot və nəzarət sisteminin zəif olması, elektrik enerjisi qiymətlərinin aşağı olması və təbii qaz və istilik təchizatının olmaması səbəbindən elektrik enerjisinin əsasən əhali tərəfindən istehlakında süni artmalar müşahidə olunurdu.

## İXRACIN STİMULLAŞDIRILMASINDA KREDİTLƏŞMƏ MEXANİZMLƏRİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

***Elmi rəhbər:*** *Dünyamalı Vəliyev*
***Dissertant:*** *Yeganə Fətəliyeva*

Dissertasiya işində qloballaşma dövründə dünya iqtisadiyyatında ixracatın rolunun artırılması əsaslandırılmış, ixracın stimullaşdırılması sahəsində nəzəri baxışların müqayisəli təhlili aparılmışdır. İxracın şaxələnməsinin dünya təcrübəsi, ixracın stimullaşdırılması mexanizmlərinin inkişaf perspektivləri araşdırılmış, ixraca dövlət dəstəyi sahəsində beynəlxalq təşkilatların tövsiyələri və müəyyən olunmuş hüquqi normaları təhlil olunmuşdur. İxracın stimullaşdırılmasında kreditləşdirmə mexanizmləri öyrənilmiş, dünya təcrübəsində ixracın şaxələndirilməsi və stimullaşdırılması mexanizmləri tədqiq edilmişdir.
Tədqiqat işində Norveç və Venesuela timsalında, şaxələndirmə siyasətinin müsbət tərəfləri araşdırılaraq belə bir nəticəyə gəlinmişdir ki, ölkə iqtisadiyyatında davamlı inkişafa nail olmanın ən əsas şərti ixracın və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsidir. Həmçinin, İxracın stimullaşdırılması məqsədilə dövlətin reallaşdırdığı dəstək tədbirləri öyrənilmişdir. Beynəlxalq iqtisadi təşkilatların ixraca dövlət dəstəyi sahəsində qoyduğu iqtisadi-hüquqi tövsiyyələr və tələblər araşdırılmışdır. Azərbaycanda ixracın inkişafının müasir vəziyyətinin qiymətləndirilməsi və inkişaf perspektivliyi təhlili aparılmış, Azərbaycanda ixracın stimullaşdırılması mexanizminin təkmilləşdirilməsi öyrənilmişdir.

## XARİCİ İNVESTİSİYALARIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ – DÜNYA TƏCRÜBƏSİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

***Elmi rəhbər:*** *Rövşən Quliyev*
***Doktorant:*** *Uğur İbrahimli*

Dissertasiya işində birbaşa investisiyaların maliyyə mənbələrinin izahı verilmiş, onların hər birinin parametrik xüsusiyyətləri araşdırılmışdır. İctimai investisiyaların səmərəliliyinin qiymətləndirilməsi üsulları, layihələrin qiymətləndirilməsinin prinsip və mexanizmləri təhlil edilmişdir. İnvestisiyaların səmərəliliyinin qiymətləndirilməsi üçün ən yayılmış üsul "xərc-fayda" təhlili aparılmış, investisiyaların səmərəliliyinin qiymətləndirilməsinin kəmiyyət üsulları araşdırılmış, kəmiyyət meyarları əsasında geniş təhlil aparılmışdır. Xarici investisiyaların determinantları və nəticələri adı altında xarici investisiyaya təsir edən amillər nəzərdən keçirilmiş, xarici investisiyaların təsirləri, o cümlədən iqtisadiyyatda yaratmış olduğu nəticələri, rəqabəti, daxili iqtisadi siyasəti, milli təhlükəsizliyi, işsizliyi, inflyasiyası,

müştərək müəssisələrə təsiri geniş təhlil edilmişdir. Həmçinin, xarici investisiyaların tənzimlənməsinin dövlət mexanizmləri, o cümlədən investisiya üçün siyasət çərçivəsinin əsas elementləri, investisiya sahəsində əsas beynəlxalq konvensiyalar və eyni zamanda onun əsas üsulları olan milli hüquqi tənzimlənmə məsələləri geniş şəkildə təhlil olunmuşdur. İşdə xarici investisiyaların ölkəyə cəlb olunmasının Çin təcrübəsini dərindən araşdırılmış, Çinə xarici kapitalın cəlb olunmasının dövlət siyasəti məsələlərini və paralel olaraq Çinə xarici investisiyaların cəlb olunmasında meydana çıxan problemlər geniş araşdırılmış, zəruri təhlillər aparılmışdır.

Azərbaycanda xarici investisiyaların hüquqi bazası və dövlət institusional mexanizmlərinə dair məsələlər nəzərdən keçirilmişdir. Azərbaycanın beynəlxalq nüfuzu qlobal rəqabətqabiliyyətlilik indeksi, iqtisadi azadlıq indeksi, biznesin asanlığı indeksi, korrupsiya səviyyəsi indeksi və Bertelsmanın transformasiya indeksi əsasında təhlil edilmişdir. Azərbaycana birbaşa xarici investisiyaların cəlb olunmasının müasir vəziyyəti 1995-2016-cı illərin göstəriciləri əsasında geniş təhlil edilmiş və təkliflər hazırlanmışdır.

## GƏNCƏ-QAZAX İQTİSADİ RAYONUNUN İQTİSADİ İNKİŞAF VƏZİYYƏTİNİN XƏRC-BURAXILIŞ MODELİ ƏSASINDA QİYMƏTLƏNDİRİLMƏSİ

***Elmi rəhbər:*** *Arzu Hüseynova*
***Doktorant:*** *Elnur Rüstəmov*

Dissertasiy işində Gəncə-Qazax iqtisadi rayonu üçün regional xərc buraxılış modelinin qurulmuş və bu əsasda regionun iqtisadi inkişaf qiymətləndirmişdir. İşdə regional xərc-buraxılış modellərinin, cədvəllərinin tərtibatının nəzəri-metodoloji aspektləri araşdırılmış, bu sahədə beynəlxalq təcrübə öyrənilmiş və Regional Hesablar Sistemi (RHS), regional xərc-buraxılış modelinin formalaşdırılması problemləri və imkanları təhlil edilərək ümumiləşdirilmişdir.

Dissertasiya işində tədqiqat obyektinin iqtisadi vəziyyəti əhatəli təhlil edilmiş, eyni zamanda ekonometrik qiymətləndirmələr əsasında lazımi məqamlar ortaya qoyulmuşdur. Bu zaman müasir statistik proqram paketi olan EViews proqramından istifadə etmişdir. İşdə Gəncə-Qazax iqtisadi rayonunun regional xərc-buraxılış modelinin məlumat bazasının formalaşdırılması üzrə əsaslı metodoloji yanaşmalar verilərək çatışmazlıqlar müəyyən edilmiş, konkret alqoritm hazırlanmış və Gəncə-Qazax iqtisadi rayonu üzrə regional xərc-buraxılış modeli qurulmuşdur. Eyni zamanda, çatışmayan statistik məlumatların əldə edilməsi istiqamətində BMT-nin müvafiq metodologiyaları əsasında sorğular həyata

keçirilmişdir.

İşdə iqtisadi rayon üzrə qurulmuş regional xərc-buraxılış modeli və onun müxtəlif modifikasiya modelləri vasitəsilə 19 iqtisadi fəaliyyət sahəsini əhatə edən simulyasiyalar aparılaraq, sahələrin ümumi buraxılış, əlavə dəyər və son məhsul göstəricilərinin sahələrarası axınlar əsasında qarşılıqlı əlaqəsi, iş qüvvəsi və əsas fondların artımının sahələrdə yaranan son məhsuldan asılılığı və sahələrin qiymət səviyyələri ilə əlavə dəyər normaları arasındakı qarşılıqlı əlaqə qiymətləndirilmiş və bu əsasda konkret elmi nəticələr ortaya qoyulmuşdur.

Ümumilikdə, tədqiqat işi çərçivəsində: regional xərc-buraxılış modellərinin hazırlanması üzrə çatışmazlıqlar müəyyənləşdirilmiş, yanaşmalar təsnif edilmiş, tətbiqinin xüsusiyyətləri araşdırılmışdır; Regional xərc buraxılış modellərinin qurulması üçün məlumat bazasının formalaşdırılması proseduru ümumiləşdirilərək ilkin mərhələdən son mərhələyədək alqoritmi verilmişdir; Gəncə-Qazax iqtisadi rayonunun ölkə iqtisadiyyatına təsirlərinin qiymətləndirilməsi istiqamətində ekonometrik modellər qurulmuşdur;

Gəncə-Qazax iqtisadi rayonu üçün regional sahələrarası balans tərtib edilmiş və bu əsasda regional xərc-buraxılış modeli qurulmuşdur; Gəncə-Qazax iqtisadi rayonu üçün qurulmuş regional xərc-buraxılış modeli əsasında əmək, kapital və tarazlı qiymət modifikasiya modelləri işlənmiş və rayonun iqtisadi vəziyyətinin qiymətləndirilməsi üzrə simulyasiyalar aparılmışdır.

## QEYRİ-NEFT İXRACININ ARTIRILMASININ TƏSİR AMİLLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MODELİNİN İŞLƏNİLMƏSİ

***Elmi rəhbər:*** *Vilayət Vəliyev*
***Dissertant:*** *Aynurə İsmayılova*

Dissertasiya işində qeyri-neft ixraçının artırılmasının təsir amilləri müəyyən edilmiş və qiymətləndirmə modelləri işlənilmişdir. Bu məqsədlə ixracın diversifikasiyasının nəzəri metodoloji əsasları, qeyri-neft ixracının artırılmasına təsir amillərinin qiymətləndirilməsinin nəzəri-metodoloji bazası, vahid təbii resurs ixracından asılılığın aradan qaldırılmasına dair digər ölkələrin təcrübəsi tədqiq edilmişdir.

İşdə qeyri-neft ixracının mövcud vəziyyəti, qeyri-neft ixracının artırılmasına təsir edən amillərin tədqiq edilmiş, altımışadək amil müəyyən edilmişdir. Qeyri–səlis məntiq əsasında qeyri–neft ixracına təsir göstərən amillərin vaciblik dərəcələrinin qiymətləndirilməsi və üstünlük dərəcələrinə görə ranqlaşdırılması üçün metodoloji yanaşma verilmiş, qeyri-neft

ixracının artırılmasına təsir edən amillər müsahibə və üstünlüyün qiymətləndirilməsi yolu ilə seçilmişdir. Nəhayət, qeyri-neft ixracının artırılması təsir edən yüksək üstünlük dərəcəsinə malik 3 mühüm amil seçilmişdir: (i) neftin dünya bazar qiyməti; (ii) tərəfdaş ölkələrdə ÜDM və (iii) ixrac qiymət indeksi.

Müəllif tərəfindən təklif edilmiş yeni metodoloji yanaşmaya əsasən aparılmış ekspert sorğularının nəticələri əsasında seçilmiş üstün amillər əsasında ekonometrik təhlillər aparılmış, qeyri-neft ixracının qiymətləndirilməsinin üç faktorlu makroekonometrik multiplikativ modeli qurulmuş və ekonometrik mültiplikativ model əsasında qeyri-neft ixracının ortamüddətli proqnozu verilmişdir.

İşin nəticəsində: qeyri-neft ixracına təsir göstərən amillərin müəyyən edilməsi və çoxmeyarlılığın yaratdığı qeyri-səlis şəraitdə təsir amillərinin vaciblik dərəcələrinin qiymətləndirilməsi üçün yeni yanaşma vermişdir; exspert rəylərinin formalaşması əsasında qeyri–neft ixracına təsir göstərən amillər üstünlük təsiririnə görə ranqlaşdırmış və ixrac prosesini tam izah etməyə qadir ən üstün amillərə malik qrup müəyyənləşdirmişdir; Azərbaycanın qeyri–neft ixracının ixracda ən çox paya malik altı tərəfdaş ölkə üzrə seçilmiş amillər qrupu əsasında texnoloji tərəqqinin təsirini nəzərə almaqla ixraçın ekonometrik təhlil və orta və uzunmüddətli proqnoz modellərini təklif etmişdir; iyerarxiya üsulu əsasında ixraçı dəstəkləyən iqtisadi fəaliyyət sahələrinin müəyyən edilməsi üçün yanaşma işləmişdir; Azərbaycanda qeyri–neft ixracının artırılması timsalında texnoloji yenilənmənin təsiri nəzərə alınmaqla ixracın artırılması üçün alternativ çoxamilli qərar qəbul etmə mexanizmi təklif edilmişdir.

## DƏYƏR ZƏNCİRİNİN GENİŞLƏNDİRİLMƏSİ KONTEKSİNDƏ AZƏRBAYCANDA NEFT KİMYA SƏNAYESİNİN DÜNYA BAZARINA İNTEQRASİYASININRASİONAL İSTİQAMƏTLƏRİ

***Elmi rəhbər:*** *Rövşən Quliyev*
***Dissertant:*** *Nigar Məmmədova*

Dissertasiya işinin “Neft-kimya məhsullarının dəyər zəncirinin genişləndirilməsi kontekstində Azərbaycan neft-kimya sənayesinin dünya bazarına inteqrasiyasının rasional istiqamətlərinin nəzəri metodoloji aspektləri” adlanan birinci fəslində qloballaşma dövründə dünya ölkələrinin iqtisadiyyatında ixracın rolunun artması səbəbləri və mövcud inkişaf meyilləri verilmiş, neft-kimya məhsullarınının əlavə dəyər zəncirinin və xarici ticarətin metodoloji aspektləri, neft-kimya məhsullarının dəyər zəncirinə uyğun fəaliyyətlərdə risklər

və onların idarə edilməsi və neft-kimya məhsullarının əlavə dəyər zəncirinə uyğun fəaliyyətlərin təşkili istiqamətində Şərqi Almaniya təcrübəsi geniş tədqiq edilmişdir.

“Almaniyanın timsalında neft-kimya məhsullarının dəyər zəncirinə uyğun fəaliyyətlərdə innovasiyaların rolu” adlanan ikinci fəsildə Almaniyanın neft-kimya məhsullarının əlavə dəyər zəncirinə təsir edən əsas drayverlərin rəqabət qabiliyyəti təhlil edilmiş, neft - kimya sənayesində innovativ məhsul istehsalının təşkili və marketinqinə dair Almaniya təcrübəsi öyrənilmiş, Almaniyanın innovasiya mədəniyyəti dair təcrübələrə geniş yerverən müəllif bu tədbirləri əsas xüsusiyyətlərinə görə qruplaşdırmağa cəhd etmişdir. Daha sonra neft-kimya məhsullarının dəyər zəncirinə uyğun fəaliyyətlərdə innovasiyaların roluna dair müvafiq ümumiləşdirmələr aparılmışdır.

“Dünya neft-kimya məhsulları bazarında Azərbaycanın yeri və rolu” başlığı altında olan üçüncü fəsildə isə əsas neft-kimya məhsullarının və karbamidin dünya bazarlarının inkişafında əsas meylləri istiqamətində ətraflı təhlillər aparan müəllif, polietilenin və polipropilenin dünya bazarlarında inkişafına, istehsal və istehlakın mövcud vəziyyətinə, neft-kimya məhsullarının dəyər zənciri üzrə emalın dərinləşdirilməsi və bu sahədə Azərbaycanda ixracın stimullaşdırılması mexanizminin təkmilləşdirilmə istiqamətləri ilə bağlı müəllifin gəldiyi qənaətlər öz əksini tapmışdır.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**

**İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu**

*Həsən Bəy Zərdabi Prospekti, 88a, AZ1122, Bakı şəhəri, Azərbaycan Respublikası,*
***Tel.:*** *+99412 4308933,* ***Faks:*** *+99412 4300215,*
***İnternet səhifə:*** *www. ier. az*